Azərbaycan, № 269.- S.7.
9 dekabr 2023-cü il

# Prezidentə inam və etimad sonsuzdur

2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçiriləcək. Ötən gün Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.



Milli Məclisin deputatı Elman Məmmədov qəzetimizə açıqlamasında bildirib ki, o, "bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır" deyən İlham Əliyevin bu seçkilərdə də qələbə qazanacağına inanır: "Mən İkinci Qarabağ savaşında zəfər çalan, torpaqlarımızı işğaldan azad edən, eləcə də müstəqilliyimizin qarantı olan ordu quruculuğunun möhkəmləndirilməsi ilə bağlı davamlı olaraq mühüm addımlar atan və iqtisadi müstəqilliyimizi təmin edən İlham Əliyevin seçkilərdə qalib gəlməsini istəyirəm. Həm də ona görə İlham Əliyevi dəstəkləyirəm ki, onun vahid dövlətçilik siyasəti ölkəmizin siyasi-iqtisadi, mədəni, sosial, hərbi və idman sahələrində dinamik inkişafını təmin edir. Üstəlik, uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq arenada tutduğu mövqeyi gündən-günə möhkəmlənir".

Deputat onu da qeyd edib ki, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi də elə İlham Əliyevin adı ilə bağlıdır: "Bu, Vətən müharibəsində, eləcə də cari il sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində dövlət başçısının liderliyi sayəsində qazandığımız zəfərlərin nəticəsidir. Biz ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının regionda və ölkəmizdə yeni reallıqlar yaratdığının şahidiyik. Bu baxımdan bütün ölkə ərazisini əhatə edəcək prezident seçkiləri həm də ərazi bütövlüyümüzün və suverenliyimizin təsdiqi kimi başa düşülməlidir".

Elman Məmmədov vurğulayıb ki, 20 ildə xalqa verdiyi hər bir vədini əməlləri ilə də təsdiqləyən Prezident İlham Əliyevə inam sonsuzdur. Dövlət başçısına olan etimadın elə başlıca səbəblərindən biri də onun sözü ilə əməllərinin dərin vəhdət təşkil etməsidir. Həm də nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev torpaqlarımızı işğaldan azad edərək ölkəsinin suverenliyini və ərazi bütövlüyünü tam bərpa edən liderdir. Şübhəsiz ki, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər dövlətçilik tariximizin ən parlaq dövrüdür.

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*